# TANAP-ın 10 ili: enerji təhlükəsizliyi və regional əməkdaşlıq

**Trans-Anadolu qaz kəməri (TANAP) artıq onilliyini tamamlayır və bu müddət ərzində Avropanın enerji xəritəsində mühüm transformasiyalara səbəb olub. Azərbaycan qazını Türkiyə vasitəsilə Avropaya çatdıran layihə geosiyasi baxımdan böyük əhəmiyyət kəsb edir. TANAP-ın uğurla reallaşması Azərbaycanın enerji strategiyasının səmərəliliyini, Türkiyənin qlobal enerji mərkəzinə çevrilmək səylərini və Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsini nümayiş etdirir.**

Azərbaycan Respublikası öz karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq üçün boru kəmərləri marşrutlarını şaxələndirməyə və alternativ ixrac istiqamətlərinə üstünlük verir. Bu siyasətin təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. "Əsrin müqaviləsi" imzalanarkən ulu öndər Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün marşrutların əhəmiyyətini vurğulamışdı. Ulu öndərin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyev də ölkəmizin qaz ehtiyatlarının dünya bazarına ixracına önəm verir. Uzun illər Azərbaycan təbii qazının Avropaya çıxarılması üçün müxtəlif variantlar müzakirə olunmuş və nəhayət ən etibarlı marşrut kimi Trans-Anadolu qaz kəməri (TANAP) seçilmişdir.

TANAP layihəsi "Şahdəniz" və digər yataqlardan hasil edilən təbii qazın Avropa bazarlarına nəql edilməsi üçün mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan bu kəmər Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihənin icrası Türkiyə və Azərbaycanın strateji tərəfdaşlığının növbəti təzahürü olmaqla, hər iki ölkənin iqtisadi inkişafına və enerji təhlükəsizliyinə töhfə verir.

2011-ci il oktyabrın 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan və Türkiyə hökumətləri arasında qazın Türkiyəyə satışı və tranziti haqqında saziş" imzalanmışdır. Daha sonra 2012-ci il iyunun 26-da "Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" saziş bağlanmış və hər iki dövlətin qanunverici orqanları tərəfindən ratifikasiya edilmişdir. 2012-ci il noyabrın 20-də Milli Məclis bu sazişi təsdiqləmiş və Prezident İlham Əliyev iki ölkə arasında bağlanan sazişin təsdiqi haqqında Qanun imzalamışdır. Bununla da Azərbaycanı Avropa qaz bazarları ilə birləşdirən TANAP layihəsinin hüquqi bazası formalaşdırılmışdır.

TANAP Azərbaycanın qaz ehtiyatlarını Avropaya ixrac etmək üçün etibarlı və səmərəli marşrutdur. Trans-Anadolu Qaz Boru Kəməri Azərbaycanın iqtisadi inkişafının mühüm tərkib hissəsidir. Ölkəmizin iqtisadiyyatında enerji sektoru əsas gəlir mənbəyi olduğuna görə, TANAP-ın uğuru maliyyə sabitliyinə birbaşa təsir edir.

Türkiyə uzun illərdir enerji tranzit ölkəsi kimi mövqeyini gücləndirmək üçün mühüm addımlar atır. TANAP bu strategiyanın əsas elementlərindən biridir. Boru



kəmərinin Türkiyə ərazisindən keçməsi ölkəyə iqtisadi dividendlər qazandırıb və onun enerji bazarında mərkəzi rol oynamasına imkan yaradıb. Bu kəmər vasitəsilə Türkiyə həm daxili qaz ehtiyaclarını ödəyir, həm də tranzit ölkə kimi əlavə gəlirlər əldə edir. Bundan əlavə, layihə Türkiyənin enerji diplomatiyasını gücləndirərək onun qlobal enerji xəritəsində əhəmiyyətini artırıb. TANAP-ın reallaşması Azərbaycan-Türkiyə strateji tərəfdaşlığını möhkəmləndirib və enerji sahəsində yeni əməkdaşlıq imkanları yaradıb.

Trans-Anadolu Qaz Boru Kəmərinin texniki göstəriciləri və əsas mərhələləri layihənin miqyasını və strateji əhəmiyyətini əks etdirir. Boru kəmərinin təməlqoyma mərasimi 17 mart 2015-ci ildə Türkiyənin Qars şəhərində keçirilmiş və həmin il inşasına başlanılmışdır. TANAP-ın ümumi uzunluğu 1812 kilometrdir. Layihənin illik ötürmə qabiliyyəti ilkin mərhələdə 16,2 milyard kubmetr olsa da gələcəkdə bu həcmin 31 milyard kubmetrə qədər artırılması nəzərdə tutulur. Layihənin səhmdarları arasında Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 51, Türkiyənin BOTAŞ şirkəti 30, bp 12 və STEAŞ 7 faiz paya sahibdir.

Boru kəmərinin açılış mərasimi 12 iyun 2018-ci ildə baş tutmuş, kommersiya qaz nəqli isə 30 iyun 2018-ci ildən etibarən həyata keçirilmişdir. TANAP-ın Avropa ilə birləşən hissəsinin rəsmi açılışı 30 noyabr 2019-cu ildə olmuş və bununla da layihənin icrası tamamlanmışdır. TANAP-ın reallaşdırılması Azərbaycanın Avropa bazarlarına çıxışını tam təmin etmişdir.

Layihənin əvvəlində 11,7 milyard dollar həcmində investisiya nəzərdə tutulsa da xərclərin optimallaşdırılması nəticəsində kapital xərcləri 6,5 milyard dollar təşkil etmişdir. TANAP beynəlxalq maliyyə institutlarının və banklarının diqqətini cəlb edən strateji layihələrdən biridir. Layihənin reallaşdırılması üçün bir sıra nüfuzlu maliyyə qurumları tərəfindən kredit və maliyyə dəstəyi ayrılmışdır.

Bu çərçivədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD) tərəfindən 400 milyon dollar, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) tərəfindən 600 milyon dollar, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) tərəfindən 500 milyon dollar kredit ayrılmışdır. Bundan əlavə, Asiya İnkişaf Bankının zəmanəti ilə 524,5 milyon dollarlıq sindikatlaşdırılmış kredit təqdim olunmuşdur. Bu maliyyə yardımları TANAP-ın uğurla həyata keçirilməsinə və Azərbaycanın enerji strategiyasının daha da gücləndirilməsinə mühüm töhfə vermişdir. Bununla belə, layihənin icrası zamanı xərclərin azalması Azərbaycanın 2,75 milyard dollarlıq borclanmadan xilas olmasına imkan yaradıb.

Azərbaycanın və Türkiyənin ortaq səyləri nəticəsində həyata keçirilən bu layihə regionun enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, hər iki ölkənin iqtisadi gücünü artırıb. TANAP çərçivəsində bu günə qədər 1000-dən çox sosial və ətraf mühit layihəsi həyata keçirilib. Kəmər boyunca fiber-optik kabellərin çəkilməsi üzrə işlər artıq yekunlaşıb və Trans-Anadolu Qaz Boru Kəməri həm keyfiyyət, həm də ətraf mühitin mühafizəsi, əməyin təhlükəsizliyi sahələrində dünyadakı ən nümunəvi göstəricilərə nail olub. Sosial dəstək və sosial məsuliyyət sahəsində dünyadakı ən nüfuzlu təşkilatlardan biri olan "Communitas" Trans-Anadolu Qaz Boru Kəmərini marşrut üzrə sosial və ətraf mühit investisiya proqramlarına görə "Sosial xidmətlər və korporativ sosial məsuliyyət üzrə liderlik" mükafatına layiq görüb. Həmçinin TANAP boru kəməri marşrutu boyunca investisiya və inkişaf layihələrini dəstək-

ləyən sosial və ətraf mühit üzrə investisiya proqramları (SEIP) ilə Böyük Britaniyada yerləşən "The International CSR Excellence Awards" təşkilatı tərəfindən "Davamlılıq" kateqoriyasında mükafatlandırılıb.

Trans-Anadolu Qaz Boru Kəməri ABŞ-da təsis edilən Beynəlxalq Biznes Mükafatı (The Stevie Awards) üzrə "Avropada ilin korporativ sosial məsuliyyət proqramı" nominasiyasında qalib seçilib. Bundan əlavə, enerji səmərəliliyini təmin edən və ekoloji cəhətdən ən son texnologiyalarla qurulan TANAP-ın Əsas İdarəetmə Mərkəzinin binası ABŞ-ın Yaşıl Bina Şurası (USGBC), "Green Business Certification Inc." (GBCI) tərəfindən bir sıra ekoloji, sosial və iqtisadi meyarlara dair qiymətləndirmələr nəticəsində "LEED® Gold" (enerji və ekoloji baxımdan mühəndislikdə lider) sertifikatına layiq görülüb. "LEED®" dünyada ən yaxşı və tanınan yaşıl bina sertifikatıdır.

Trans-Anadolu Qaz Boru Kəməri, həmçinin "Davamlılıq" kateqoriyasında "2019-cu il yaşıl dünya" mükafatı qazanıb. Layihə ətraf mühitin qorunması və davamlılıq sahəsində ən müvəffəqiyyətli layihələri qiymətləndirən və mərkəzi ofisi Böyük Britaniyada olan "The Green Organisation" tərəfindən bu beynəlxalq mükafata layiq görülüb. TANAP-ın reallaşması regional və qlobal geosiyasi vəziyyətə də təsir edib. Layihə enerji sektorunda yeni əməkdaşlıq formatları yaradıb və Azərbaycanın Qərblə münasibətlərini daha da gücləndirib. Layihə bəzi güc mərkəzlərinin maraqlarına uyğun olmadığı üçün müxtəlif siyasi təzyiqlərlə qarşılaşıb. Lakin Azərbaycan və Türkiyə güclü siyasi iradə nümayiş etdirərək Trans-Anadolu Qaz Boru Kəmərini uğurla başa çatdırıblar.

Hazırda Azərbaycan yeni qaz yataqlarının işlənməsinə və ixrac imkanlarını artırmağa çalışır. TANAP-ın ötürücülük qabiliyyətinin artırılması da gündəmdədir və bu istiqamətdə yeni investisiya imkanları araşdırılır. Bərpaolunan enerji mənbələrinin inkişafı Trans-Anadolu Qaz Boru Kəmərinin gələcəkdə hansı rolu oynayacağına təsir göstərə bilər. Lakin qazın hələ uzun illər ərzində əsas enerji mənbəyi olacağı gözlənilir və bu kontekstdə Trans-Anadolu Qaz Boru Kəmərinin əhəmiyyəti qorunub saxlanacaq.

TANAP-ın onilliyi Azərbaycanın və Türkiyənin enerji sahəsində əldə etdiyi uğurları Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsini və regional əməkdaşlığın dərinləşməsini əks etdirir. Azərbaycan üçün Trans-Anadolu Qaz Boru Kəməri gələcəyə açılan bir pəncərədir və bu layihənin daha da genişləndirilməsi ölkənin beynəlxalq mövqeyini möhkəmləndirəcək. TANAP enerji sahəsində regional və qlobal əməkdaşlıq üçün bir model olaraq qalacaqdır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika"**